# Mündəricat


01 Avropa məktəblərində dayanıqlı təhsil sistemi:
siyasi təhlillər və tövsiyələr

02 Ömürboyu təhsil hüquqları: quruluşdan nəticəyə

03 Seçim əsaslı dövlət məktəblərinin quruluşu: iştirak edənlər və faydalananlar

04 Niderlandda rəqəmsal təhsil siyasəti

# Avropa məktəblərində dayanıqlı təhsil sistemi: siyasi təhlillər və tövsiyələr

01

Avropa İttifaqı tərəfindən "Avropa məktəblərində dayanıqlı təhsil sistemi: siyasi təhlillər və tövsiyələr" adlı hesabat təqdim edilmişdir. Hesabatda Avropa məktəblərində dayanıqlı təhsil sistemi son illərdə təhsil siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrildiyi qeyd olunur. Hesabatda dayanıqlılıq anlayışı yalnız ekoloji savadlılıqla məhdudlaşdırılmır, eyni zamanda sosial ədalət, iqtisadi məsuliyyət, vətəndaşlıq kompetensiyaları və demokratik iştirak kimi başlıca meyarları əhatə edir. Bu çoxölçülü yanaşma Avropa İttifaqının Dayanıqlı İnkişaf sazişi (European Green Deal) və Avropa Təhsil Məkanı (European Education Area) kimi əsas strateji çərçivələrlə sıx əlaqələndirilir, təhsili dayanıqlı inkişaf və rəqəmsal transformasiyanın əsas hərəkətverici qüvvəsi kimi mövqelendirir.

Hesabatda dayanıqlı inkişaf üçün təhsilin aktuallığı qlobal və regional çağırışlar kontekstində əsaslandırılır. İqlim dəyişikliyi, biomüxtəlifliyin azalması və sosial bərabərsizlik kimi problemlər fonunda məktəblərin yalnız bilik ötürən müəssisələr deyil, eyni zamanda şagirdlərdə sistemli düşünmə, problem həlli və vətəndaşlıq vəzifələrinin formalaşdıran sosial mühitə çevrilməsi zəruri hesab olunur. Bu çərçivədə Avropa ölkələrində dayanıqlı təhsil sistemi artıq əlavə və ya seçmə mövzu kimi deyil, kurikulumun və tədris prosesinin təşkilində ayrılmaz tərkib hissəsi kimi təqdim edilir.
Hesabatın siyasi konteksti bölməsində 2022-ci ildə qəbul edilmiş Yaşıl Keçid və Dayanıqlı Təhsil Sistemi (Green Transition and Sustainable Education System) üçün Avropa Şurasının Tövsiyəsi (Recommendation of the Committee of Ministers of the Council of Europe) əsas normativ sənəd kimi göstərilir. Sənəd üzv dövlətləri bütöv məktəb yanaşmasını tətbiq etməyə, müəllim hazırlığını və peşəkar inkişafı gücləndirməyə, həmçinin milli və təşkilati strategiyalar hazırlamağa təşviq edir. Bütöv məktəb yanaşması hesabatda dayanıqlı təhsil sisteminin əsas sütunlarından biri kimi göstərilir.

Almaniya, İspaniya, Avstriya və Macarıstanda dayanıqlılıq yalnız tədris proqramına inteqrasiya olunmaqla kifayətlənmir, məktəbin idarəçiliyi, infrastrukturu, gündəlik fəaliyyətləri və yerli icma ilə əməkdaşlığı əhatə edən geniş yanaşma daha böyük təsir yaradır. Finlandiya və İsveçdə dayanıqlılıq fənlərarası əsas kompetensiya kimi müəyyənləşdirilmiş, Macarıstanda isə ümumtəhsil səviyyəsində formalaşdırılmışdır, bu Avropa ölkələri arasında siyasi və yanaşma fərqliliyini göstərir. Xüsusilə Yunanıstanda Aktiv Vətəndaşlıq (Initiative for Active Citizenship) kurikulumu 2024–2025-ci tədris ilindən etibarən bütün təhsil pillələri üçün məcburi xarakter daşıyır və dayanıqlı inkişaf məqsədləri ilə birbaşa əlaqələndirilir. Kurikulum dizaynı və əsas kompetensiyalar bölməsində ölkələr Avropa Dayanıqlılıq Kompetensiyaları Çərçivəsinə (GreenComp: The European Sustainability Competence Framework) əsaslanan kurikulum modelləri ilə fərqlənir. Belçika (Flaman regionu), Fransa, Norveç və İrlandiya bu çərçivəyə uyğun olaraq fənlərarası və kompetensiya yönümlü kurikulumlar hazırlamışdır. Həmçinin Portuqaliyada Vətəndaşlıq və Dayanıqlı İnkişaf (Citizenship and Development) kurikulumu bütün təhsil pillələrində məcburi olub, vətəndaşlıq və dayanıqlı inkişaf məqsədlərini əhatə edir.

Hesabatda şagirdlərin səsvermə hüququ və fəal rolunun gücləndirilməsi, xüsusilə İrlandiya və Lüksemburq nümunələrində, kurikulumun etibarlılığını və tədrisin səmərəliliyini artıran əsas faktor kimi qiymətləndirilir.
Hesabat tədris və qiymətləndirmə sahəsində ənənəvi summativ qiymətləndirmə modellərindən formativ və tətbiqi (autentik) qiymətləndirməyə keçidi tövsiyə edir. Finlandiyada portfel əsaslı qiymətləndirmə və dialoq əsaslı qiymətləndirmə metodları, İrlandiyada isə iqlim fəaliyyəti mövzulu layihə əsaslı qiymətləndirmə dayanıqlılıq kompetensiyalarının ölçülməsi baxımından innovativ təcrübələr kimi təqdim olunur.

Müəllimlərin və məktəb rəhbərlərinin peşəkar inkişafına dəstək dayanıqlı təhsil sisteminin təşkilati sabitlik təmin edən əsas amillərindən biri kimi qiymətləndirilir. Kipr və Fransa nümunələri göstərir ki, effektiv liderlik modelləri, davamlı peşəkar inkişaf proqramları və yerli səviyyədə təşkilati dəstək mexanizmləri olmadan sistemli dəyişiklik mümkün deyil.



Kiprdə Məktəbi Yaşıllaşdırmaq - Cəmiyyəti Yaşıllaşdırmaq (Greening the School – Greening the Community) təşəbbüsü məktəblərə məsləhətçi və mentor dəstəyi göstərir. Fransada tətbiq olunan eko-nümayəndələr (eco-delegates) şagird liderliyini məktəb rəhbərliyi ilə əlaqələndirən effektiv idarəetmə mexanizmi kimi nəzərdən keçirilir. Şagirdlərin qərarvermə prosesində iştirakı ekoloji narahatlığın (eco-anxiety) azalmasına və ümumi rifahın yüksəlməsinə müsbət təsir göstərir. Fransa, Almaniya, İspaniya və İrlandiya da şagirdlərin bu prosesdə aktiv rolu olduğu sistemlər kimi ön plana çıxır. Almaniyada fəaliyyət göstərən Gənclərin Dayanıqlı İnkişaf Təhsili Paneli (Youth Panel on Education for Sustainable Development) platforması və İspaniyanın Ətraf Mühit və Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Gənclər Konfransı (International Youth Conference on Environment and Sustainability) şagirdlərin dayanıqlı inkişaf bacarıqları və vətəndaşlıq vəzifələri arasındakı əlaqəni gücləndirən təsirli mexanizmlər kimi qiymətləndirilir. İrlandiyada isə Kinsale İcma Məktəbi (Kinsale Community School) nümunəsində şagirdlərin tədris prosesinə real təsir imkanları xüsusi vurğulanır.
Bundan əlavə hesabatda məktəb və yerli icma arasındakı əməkdaşlıq da xüsusi vurğulanır. İspaniya, Fransa və Estoniyanı bu istiqamətdə nümunə kimi təqdim etmək olar. Fransada Təhsil Sahələri (Aires Educatives) proqramı məktəbləri biomüxtəliflik üzrə ixtisaslaşmış qruplarla birləşdirir. Estoniyada isə məktəblər yerli icma ilə birgə həyata keçirilən layihələr vasitəsilə dayanıqlı inkişaf hədəflərini inkişaf etdirir.

Hesabatın yekun hissəsində dayanıqlı inkişaf, vətəndaşlıq vəzifələri və demokratik iştirak arasındakı əlaqələrin möhkəmləndirilməsi, məktəbdənkənar əməkdaşlıqların genişləndirilməsi, dayanıqlı iqtisadiyyatla bağlı karyeraların və STEM sahələrinin təşviqi əsas siyasi prioritetlər kimi müəyyən edilir.

**Kurikulumda dayanıqlı inkişaf**
Dayanıqlı inkişaf və vətəndaşlıq vəzifələri fənlərarası yanaşma əsasında kurikuluma inteqrasiya edilməli, tədris, qiymətləndirmə və pedaqoji yanaşmalar arasında daxili uyğunluq təmin olunmalıdır.
**Hazırlıq səviyyəsi və sistemin dayanıqlılığı**
Təhsil sistemləri iqlim risklərinə qarşı dayanıqlı infrastruktura, fövqəladə hallarda təhsilin fasiləsizliyini təmin edən planlara və yerli kontekstə uyğun adaptasiya strategiyalarına sahib olmalıdır.
**Tətbiqi (autentik) qiymətləndirmə**
Layihə əsaslı fəaliyyətlərə, portfellərə və real həyat kontekstlərinə əsaslanan autentik qiymətləndirmə modellərinin tətbiqi genişləndirilməlidir.
**Dayanıqlı məktəb mühiti:**
Məktəb binaları və əraziləri enerji səmərəliliyi, ekoloji davamlılıq prinsipi əsasında öyrənmə mühitlərinə çevrilməlidir.
**Şagird fəallığı və müstəqil qərarvermə imkanları:**
Şagirdlərin qərarvermə proseslərində və kurikulumun formalaşdırılmasında fəallığını təmin edən təşkilati mexanizmlər yaradılmalıdır.
**Müəllim və məktəb rəhbərlərinin peşəkar inkişafı:**
Müəllimlər və məktəb rəhbərləri üçün müxtəlif sahələrdə davamlı peşəkar inkişaf proqramları təmin edilməlidir.
**İcma və sektoral əməkdaşlıq:**
Məktəblər qeyri-hökumət təşkilatları, yerli icmalar, ali təhsil müəssisələri və biznes strukturları ilə uzunmüddətli və sistemli əməkdaşlıqlara cəlb olunmalıdır.
**Ekoloji narahtlıq və dezinformasiyanın qarşısının alınması:**
Şagirdlərin rifahını qorumaq məqsədilə emosional dəstək mexanizmləri, tənqidi düşünmə və media savadlılığı bacarıqları gücləndirilməlidir.
**Rəqəmsal texnologiyalar və süni intellekt:**
Rəqəmsal və ekoloji dəyişikliklər inteqrasiya olunmalı, şagirdlərin rəqəmsal bacarıqları və süni intellektdən məsuliyyətli istifadə kompetensiyaları inkişaf etdirilməlidir.

Beynəlxalq Təhsil İcmalı
Yanvar 2026



**Monitorinq və qiymətləndirmə sistemləri:**
Məktəbdaxili özünüqiymətləndirmə mexanizmləri milli monitorinq və keyfiyyət təminatı sistemləri ilə əlaqələndirilməlidir.
**Dayanıqlı karyeralar və STEM:**
STEM təhsili və əmək bazarının gələcək tələbləri dayanıqlı inkişaf məqsədləri ilə uzlaşdırılmalı, dayanıqlı karyera trayektoriyalarının təşviqi təmin edilməlidir.
**Bütöv məktəb prinsipi:**
Dayanıqlı inkişaf, təhsil, idarəetmə, tədris mühiti və icma əlaqələrini əhatə edən bütöv məktəb prinsip sistemli şəkildə dəstəklənməlidir.

***Mənbə:*** *European Commission: Directorate-General for Education, Youth, Sport and Culture, Mulvik, I., Tilbury, D., Baroková, B., Torras Negredo, N. et al., Learning for sustainability in Europe's schools – Policy insights and recommendations, Publications Office of the European Union, 2025, https://data.europa.eu/doi/10.2766/1175990*

# Ömürboyu təhsil hüquqları: quruluşdan nəticəyə

02

UNESCO tərəfindən "Ömürboyu təhsil hüquqları: quruluşdan nəticəyə" adlı hesabat hazırlanmışdır. Hesabat ömürboyu təhsil sahəsində beynəlxalq tendensiyaları təhlil edir və Avstraliya, Kanada, Fransa, İrlandiya, Cənubi Koreya və Sinqapurda ömürboyu təhsil hüquqlarına dair təşkilati mexanizmləri müqayisəli şəkildə təqdim edir. Tədqiqatın əsas məqsədi fərdlərə yönəlmiş təlim hüquqları anlayışını müxtəlif kontekstlərdə araşdırmaq və tətbiq olunan proqramların quruluşunu və nəticəsini qiymətləndirməkdir.

Hesabatda ömürboyu təhsil hüquqları fərdlərə birbaşa aid edilən təlim hüquqları sistemi kimi təqdim olunur, bu çərçivədə təhsil və bacarıqların təkmilləşdirilməsi imkanları iş yeri ilə deyil, şəxsin öz hüquqları ilə əlaqələndirilir. UNESCO-ya görə ömürboyu təhsil insanlara bilik və bacarıq əldə etmək, sürətlə dəyişən mühitə uyğunlaşmaq və fəaliyyətlərini davam etdirmək imkanı yaradılmalıdır.

Hesabatda altı ölkədə ömürboyu təhsil hüquqlarının müxtəlif formaları təqdim olunur. Bu mexanizmlər ölkə kontekstindən asılı olaraq fərqlənsə də aşağıdakı kimi qruplaşdırılmışdır:

**Avstraliya:** Ölkədə 2012-ci ildə imzalanmış Milli Peşə Bacarıqları və Əmək Bazarı İnkişafı Sazişi çərçivəsində fərdlərə texniki-peşə təhsilinə maliyyə dəstəyi təqdim edilmişdir. Xərclərin təmin edilməsi əsasən maliyyə dəstəyi və kreditlər hesabına həyata keçirilir. Keyfiyyətin təminatı milli standartlar və təlim provayderlərinin qeydiyyatı üzrə məsul qurum (ASQA) vasitəsilə həyata keçirilir, monitorinq isə əsas fəaliyyət göstəriciləri əsasında aparılır. Sistem tələbələrə kurs və təlim müəssisələrini sərbəst seçmək imkanı yaratsa da ilkin mərhələdə müşahidə olunan fəal iştirak səviyyəsi maliyyə xərclərinin artması səbəbindən davamlı olmamış, hədəflərə 2020-ci ilədək tam nail olunmamış və nəticədə sistem 2023-cü ildə yeni Milli Bacarıqlar sazişi ilə əvəz edilmişdir.

**Kanada:** 25–64 yaşlı işçilər hər il Kanada Təlim Krediti (Canada Training Credit) proqramı çərçivəsində 250 Kanada dollarına qədər vergi krediti əldə edirlər. Proqramın maliyyələşdirilməsi illik təxminən 230 milyon Kanada dolları həcmindədir. İşçi təlim xərclərini əvvəl ödəyir, sonra isə həmin məbləğin bir hissəsini və ya hamısını vergi krediti kimi geri alır. Keyfiyyətin təminatı təsdiqlənmiş təlim müəssisələri və kurslar üzrə aparılır, monitorinq isə Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir. 2021-ci ildə qeyd olunan proqram çərçivəsində təxminən 580 min nəfər təlim proqramlarına cəlb olunmuşdur. Lakin aparılan təhlillər göstərir ki, bu kreditdən əsasən daha yüksək gəlirli və təhsilli şəxslər faydalanmışdır. Nəticə etibarilə, aşağı və yüksək gəlirli qruplar arasında təhsil imkanlarındakı bərabərsizlik hələ də aktual olaraq qalmaqdadır.

**Fransa:** 2014-cü ildə tətbiq edilən Fərdi Təlim Hesabı (Compte Personnel de Formation) sistemi işçilərə hər il 500 avro məbləğində kredit toplamaq və maksimum 5000 avro balans formalaşdırmaq imkanı yaradır. Maliyyələşdirmə əsasən işəgötürənlərin əməkhaqqı fondundan 0,2% məbləğ ayrılması ilə həyata keçirilir. Sənaye və əmək bazarında iştirak işəgötürən və işçi nümayəndələri vasitəsilə təmin olunur. Keyfiyyətə nəzarət Fransa Milli Tənzimləyici (France Compétences) qurumu tərəfindən, monitorinq isə Sosial İşlər Üzrə Baş Müfəttişlik (Inspection Générale Des Affaires Sociales) tərəfindən həyata keçirilir. 2021-ci ildə bu sistem  çərçivəsində 2 milyondan çox şəxs müxtəlif təlim kurslarına cəlb edilmişdir. Xüsusilə işsizlər, aşağı ixtisaslı şəxslər və qadınlar arasında bu sistemdən istifadənin yüksək olması həssas qrupların da əhatə olunduğunu göstərir.

**İrlandiya:** Ölkədə ömürboyu təhsil hüquqları pilləli şəkildə formalaşmışdır. Ölkədə iki əsas proqram - eCollege (1998) və Springboard+ (2011) tam maliyyə dəstəyi ilə təlim kursları təqdim edən mexanizmlərdir.

Proqramların maliyyələşdirilməsi əsasən Milli Təlim Fondu (National Training Fund) hesabına həyata keçirilir. Sənaye və əmək bazarının rolu proqram məzunlarının hazırlanmasında ekspert panelləri vasitəsilə həyata keçirilir.Keyfiyyət daimi müstəqil auditlərlə qiymətləndirilir, monitorinq isə Davamlı Təhsil və Bacarıqlar Xidməti (Further Education and Training Authority) və ali təhsil qurumları tərəfindən aparılır.2024-cü ildə eCollege əsasən informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal və biznes bacarıqları üzrə əmək bazarına yönəlmiş, sənaye tərəfindən prioritet hesab olunan kurslar təqdim etmişdir. Bu kurslar çevik formatda təşkil olunur, yəni iştirakçılar istənilən vaxt qeydiyyatdan keçərək təlimlərə onlayn qoşula bilirlər.



"Springboard" proqramı çərçivəsində isə 2023-cü ildə təxminən 22 min müraciətdən 9300 nəfərə maliyyə dəstəyi ayrılmışdır. Hər iki proqram işəgötürənlərlə sıx əməkdaşlıq əsasında hazırlanmışdır və kursların keyfiyyəti ciddi akreditasiya və nəzarət mexanizmləri ilə təmin edilir.
**Cənubi Koreya:** Ölkədə 2020-ci ildən etibarən Milli Öyrənmə Kartı (National Learning Card) tətbiq olunur. Maliyyələşmə işsizlik sığortası fondları vasitəsilə təmin edilir və hər şəxs üçün illik 3–5 milyon Cənubi Koreya vonu həcmindədir. Sənaye iştirakı əsasən iri şirkətlərin daxili təlim proqramları ilə həyata keçirilir, keyfiyyət təminatı Bacarıqların Keyfiyyətinə Nəzarət Qurumu (Korea Skills Quality Authority) vasitəsilə təmin olunur, monitorinq isə Əmək və Məşğulluq İdarəsi tərəfindən aparılır. Proqram demək olar ki, bütün işçi qüvvəsini əhatə etməklə, ilkin 3 milyon von maliyyə dəstəyinə əlavə olaraq 2 milyon von əlavə maliyyə imkanı yaradır. Bu maliyyə dəstəyindən 5 il ərzində istifadə etmək mümkündür və iş yeri dəyişdikdə itmir. 2021-ci ildə təxminən 28,5 milyon işçidən 1 milyonu bundan faydalanmışdır. Proqram gənc işçilər arasında xüsusilə geniş yayılmışdır və iş tapmaqda rolunu müsbət qiymətləndirirlər. Lakin təlimin keyfiyyətinin artırılması məsələsi hələ də aktuallığını qoruyur.
**Sinqapur:** 2015-ci ildə tətbiq edilən Gələcək Bacarıqlar (SkillsFuture) proqramı fərdi məsuliyyətin təşviqi və öyrənmə maneələrinin aradan qaldırılmasına yönəlmişdir. Proqram 25 yaşdan yuxarı şəxslərə ilkin olaraq 500 Siqapur dolları kredit təqdim edir. Hər il proqram üçün təxminən 700 milyon Sinqapur dolları həcmində vəsait ayrılır. SkillsFuture proqramı işəgötürənlər və sənaye assosiasiyaları ilə əməkdaşlıq edir. Keyfiyyət təminatı Təlim Keyfiyyəti və Nəticələrin Ölçülməsi (Training Quality and Outcomes Measurement) sorğusu vasitəsilə, monitorinq isə Gələcək Bacarıqlar proqramı vasitəsilə daimi aparılır. 2020-ci ildə bu kredit artırılaraq hər il 1000 Sinqapur dolları olmuş və 40–60 yaşlı işçilərə əlavə 500 Sinqapur dolları əlavə maliyyə dəstəyi təqdim edilmişdir. 2022-ci ilin statistikasına əsasən, 2,4 milyon işçidən 192 min nəfər (təxminən 8%) SkillsFuture proqramından istifadə etmişdir. Bu göstəricilər göstərir ki, maliyyə dəstəyinin artırılması öyrənmə fəaliyyətini həmişə stimullaşdıra bilmir və dəstəkləyici mexanizmlərə ehtiyac vardır.

Hesabatda bildirilir ki, ömürboyu təhsil hüquqları fərdlərin təlimə cəlb olunmasını və peşəkar bacarıqlarının inkişafını stimullaşdırır. Sinqapurda və Cənubi Koreyada tətbiq olunan proqramlar işçilərin təlimlərə cəlb olunmasını artıraraq iş fəaliyyətlərinin səmərəliliyinə müsbət təsir göstərmişdir. İrlandiyada tətbiq olunan proqram əmək bazarının ehtiyaclarına uyğun bacarıqların formalaşdırılmasına xidmət edir. Kanadada tətbiq olunan proqram isə maliyyə maneələrinin aradan qaldırılmasına yönəlmişdir. Ümumilikdə, ömürboyu təhsil hüquqları fərdi imkanların genişləndirilməsində effektiv vasitə kimi qiymətləndirilir.
Bütün müsbət göstəricilərinə baxmayaraq, hesabatda ömürboyu təhsil hüquqları üzrə proqramların tətbiqində bir sıra problemlərin mövcudluğundan bəhs olunur. Bu problemlərə siyasi məqsədlərin qeyri-dəqiqliyi, mürəkkəb idarəetmə strukturları və zəif koordinasiya daxildir. Həmçinin bəzi ölkələrdə yalnız maliyyə dəstəyinin təmin olunmasının təlimə marağı artırmaq üçün kifayət etmədiyi və əlavə maarifləndirmə tədbirlərinə ehtiyac olduğu qeyd edilir. Bundan əlavə, təlim bazarında keyfiyyət problemləri və qayda pozuntuları xüsusilə Fransa və Sinqapur nümunələrində, ömürboyu təhsil hüquqlarının dayanıqlılığı üçün ciddi risklər yaradır. Hesabatda həmçinin ömürboyu təhsil hüquqlarının təsirini artırmaq üçün siyasi məqsədlərin aydınlaşdırılması, idarəetmə proseslərinin sadələşdirilməsi və qurumlararası koordinasiyanın gücləndirilməsi tövsiyə olunur. Təlimlərə tələbatın artması üçün məlumatlandırma tədbirləri, karyera məsləhət xidmətləri və keyfiyyətə nəzarət mexanizmləri vacib hesab olunur. Qayda pozuntularının qarşısını almaq məqsədilə texniki nəzarət vasitələri və ciddi akkreditasiya sistemləri əsas rol oynayır.

***Mənbə:*** *UNESCO. (2025). Lifelong learning entitlements: From design to impact. Cases of Australia, Canada, France, Ireland, the Republic of Korea and Singapore. United Nations Educational, Scientific and Cultural Organization. https://doi.org/10.54675/SECF7864*

# Seçim əsaslı dövlət məktəblərinin quruluşu: iştirak edənlər və faydalananlar

03

Bekker Fridman İnstitutu (Becker Friedman Institute) tərəfindən hazırlanmış “Seçim əsaslı dövlət məktəblərinin quruluşu: iştirak edənlər və faydalananlar” adlı hesabatda ABŞ-də seçim əsaslı dövlət məktəbləri sisteminin struktur xüsusiyyətləri təhlil edilir.
Hazırda ABŞ-də seçim əsaslı dövlət məktəbləri sisteminə qeydiyyatın son 20 il ərzində 2 dəfədən çox artdığı qeyd olunur. Təhsil idarələrinin əksəriyyətində şagirdlərin məktəblərə qəbulu mərkəzləşdirilmiş qaydada həyata keçirilsə də seçim əsaslı dövlət məktəblərinə qeydiyyat könüllüdür və valideynlər seçim prosesində aktiv şəkildə iştirak edə bilərlər. Bu proses imkanları məhdud ailələrin uşaqlarının seçim proqramlarından kənarda qalma riskini artırır. Hesabata əsasən ABŞ-də yerli təhsil idarələrinin yalnız 9%-i bütün şagirdlər üçün məktəb seçimi üzrə müraciətin məcburi olmasını tələb edir.
Tədqiqat zamanı ABŞ-nin 150 böyük təhsil idarəsi üzrə ilkin məlumatlar toplanmışdır. Tədqiqatın mərkəzində ABŞ-də ən böyük könüllü seçim sistemi olan və təxminən illik 110 min şagirdi əhatə edən Los Anceles Təhsil İdarəsidir.

Seçim əsaslı dövlət məktəbləri ümumilikdə yüksək keyfiyyətlidir və bu məktəblərə qəbulun akademik nəticələrə orta təsiri riyazi bacarıqlar üzrə 0.29, oxu bacarıqları üzrə isə 0.24 vahid yüksəlmə ilə müşayiət olunur. Lakin mövcud könüllü müraciətə əsaslanan sistemdə bu nəticə tam şəkildə reallaşmır. Bunun əsas səbəbi odur ki, müraciət imkanları yüksək olan şagirdlər akademik baxımdan nisbətən daha az nailiyyət əldə edirlər. Müraciət ehtimalı ən zəif və ən güclü olan şagird qrupları arasındakı təsir fərqi təxminən 0,30 vahiddir. Bu vəziyyət göstərir ki, könüllü iştirak sistemi yüksək nailiyyət əldə edə biləcək şagirdlərin əhəmiyyətli hissəsini sistemdən kənarda saxlayır və bir çox seçim əsaslı dövlət məktəblərində yerlərin tam dolmamasına səbəb olur.

Fərqli sistemlər üzrə aparılan təhlillər göstərir ki, məlumatlandırmanın artırılması və ya hədəflənmiş informasiya tədbirləri iştirak səviyyəsinə qismən təsir göstərir. Əksinə, müraciətin məcburi olduğu sistemlərdə iştirak əhəmiyyətli dərəcədə artır və bu akademik nailiyyətlərin yüksəlməsi ilə nəticələnir. Ən yüksək təsir şagirdləri mərkəzləşdirilmiş qaydalarla məktəblərə yerləşdirmə nəticələrində müşahidə olunur: riyazi bacarıqlar üzrə nəticələr 0.018, oxu bacarıqları üzrə isə 0.016 vahid artır. Eyni zamanda seçim əsaslı dövlət məktəblərinə yerləşdirilən şagirdlər üçün akademik nəticələr 0.18–0.21 vahid səviyyəsinə yüksəlir ki, bu da mövcud könüllü müraciətə əsaslanan sistemdə qeydə alınan 0.08–0.11 vahid yüksəkdir.

Hesabatda qeyd olunur ki, seçim əsaslı dövlət məktəbləri sistemində kimin iştirak edəcəyi və necə yerləşdiriləcəyi əldə olunan nəticələrə əhəmiyyətli təsir göstərir. Yəni burada əsas problem məktəbin keyfiyyətindən çox, sistemin quruluşundadır. Mərkəzləşdirilmiş və məcburi iştirak mexanizmləri tətbiq olunduqda həm boş qalan yerlər azalır, həm də riyazi və oxu bacarıqları üzrə nəticələr yüksəlir. Şagirdlərin tam iştirakı və mərkəzləşdirilmiş yerləşdirmənin təmin olunduğu sistem ədalətlilik və akademik nəticələr baxımından əhəmiyyətli irəliləyişə səbəb ola bilər.

***Mənbə:*** *Becker Friedman Institute for Economics and Campos, Christopher and Chyn, Eric and Bruhn, Jesse and Vazquez, Antonia, Who Chooses and Who Benefits? The Design of Public School Choice System (2025). University of Chicago, Becker Friedman Institute for Economics: https://ssrn.com/abstract=5930858 or http://dx.doi.org/10.2139/ssrn.5930858*

# Niderlandda rəqəmsal təhsil siyasəti

04

Təhsilin rəqəmsal transformasiyası və müəllimlərin gələcəyə hazırlığı layihəsi çərçivəsində "Niderlandda rəqəmsal təhsil siyasəti" adlı hesabat hazırlanmışdır. Hesabat Niderlandda ibtidai və orta təhsil səviyyələrində rəqəmsal təhsil siyasətini sistemli və müqayisəli şəkildə təhlil edir.

Hesabatda qeyd olunur ki, tarixən yüksək göstəriciləri ilə seçilən Niderlandda son onillikdə PISA 2022 nəticələrinə əsasən riyaziyyat, oxu və təbiət elmləri üzrə nailiyyətlərdə davamlı azalma müşahidə edilmişdir. Eyni zamanda, PISA məlumatları şagirdlərin 7,6%-nin rəqəmsal resurs çatışmazlığı olan məktəblərdə təhsil aldığını göstərir. Şagirdlər rəqəmsal texnologiyalardan istifadədə özlərini inamlı hesab etsələr də ICILS 2023 tədqiqatının nəticələrinə görə 8-ci sinif şagirdlərinin əksəriyyəti (57%) rəqəmsal savadlılıq üzrə baza səviyyəsindən aşağı bacarıqlara malikdir. Hesabatda aşağıdakı əsas istiqamətlər əhatə olunur:

**Təhsil göstəriciləri və rəqəmsal bacarıqlar:**
Hesabat göstərir ki, Niderland təhsil siyasətində rəqəmsal təhsil prioritet istiqamət kimi müəyyən edilmiş və bu sahədə maraqlı tərəflərin iştirakına əsaslanan idarəetmə modeli formalaşdırılmışdır. Ümumi siyasət çərçivəsi Təhsil, Mədəniyyət və Elm Nazirliyi (OCW) tərəfindən müəyyən edilsə də, məktəblər və məktəb şuraları idarəetmədə yüksək müstəqilliyə malik olaraq rəqəmsal texnologiyaların tətbiqində əsas icraçı tərəf kimi çıxış edirlər.

Rəqəmsal təhsil siyasəti çərçivəsində əsas strateji sənədlərə İbtidai və Orta Təhsil üçün Rəqəmsallaşma Gündəliyi (Digitalisation Agenda for Primary and Secondary Education), Niderland Rəqəmsallaşma Strategiyası (Netherlands Digitalisation Strategy), Əsas Bacarıqlar Master Planı (Basic Skills Master Plan) və Niderland Kiber Təhlükəsizlik Strategiyası (Netherlands Cybersecurity Strategy) daxildir. Bu sənədlərdə innovasiya, rəqəmsal savadlılıq, resurslar, infrastruktur və etik prinsiplərə diqqət yetirilir. Buna baxmayaraq, hesabat mövcud rəqəmsallaşma sənədlərinin uzunmüddətli perspektivi tam təmin etmədiyini vurğulayır. Bildirilir ki, mövcud strategiyalar ümumi məqsədləri ifadə etsə də konkret hədəflər, ölçüləbilən göstəricilər, icra müddətləri və məsul qurumlar dəqiq müəyyən edilməmişdir.

Monitorinq və qiymətləndirmə mexanizmlərinə gəldikdə isə Niderland təhsil sistemi ümumilikdə güclü qiymətləndirmə mexanizmlərinə malikdir. Qiymətləndirmələr milli tədqiqatlar (MYRA, Peil.Digital Literacy, LAKS, DIGCOM, Prestatiemonitor, Vensters) və beynəlxalq tədqiqatlar (PISA, TALIS, ICILS) vasitəsilə həyata keçirilir. Bununla belə, rəqəmsal təhsilin monitorinqi vahid çərçivəyə əsaslanmır və toplanan məlumatlar strateji qərarvermə prosesinə kifayət qədər inteqrasiya edilmir.

**Rəqəmsal infrastruktur, maliyyələşdirmə və satınalma sistemləri:**
Hesabatda qeyd olunur ki, Niderlandda ümumtəhsil xərcləri OECD ölkələri üzrə orta göstəricidən yüksəkdir (2022-ci ildə ÜDM-in 4,2%-i ümumi, 3,0%-i ibtidai və orta təhsilə ayrılmışdır). Lakin son illərdə maliyyə vəsaitlərinin azaldılması (2025–2028-ci illər üçün təhsilə illik 1,8 milyard avro azalma planı) və vacib istiqamətlərdə dəyişikliklər (səhiyyə, müdafiə və yaşayış xərclərinin artması) rəqəmsal təhsil investisiyalarına mənfi təsir göstərmişdir. Məktəblər hər şagird üçün sabit vəsait əsasında maliyyələşdirilir, əlavə maliyyə dəstəyi  isə (məs., Basic Skills Improvement Subsidy) rəqəmsal bacarıqlar və infrastrukturun inkişafına yönəldilir. Buna baxmayaraq, hesabatda bəzi çatışmazlıqlar qeyd edilir.

Belə ki, Niderland təhsil sistemi yüksək səviyyədə idarəetmə müstəqilliyinə malik olduğundan, satınalma proseslərində mərkəzi dəstəyin olmaması, məktəblər arasında rəqəmsal resurslara çıxışda bərabərsizliyin mövcudluğu, valideynlər və məktəblər üçün əlavə maliyyə yükü, kiber təhlükələrə (xüsusilə ransomware və DDoS hücumları) qarşı yüksək həssaslıq və məlumatların məxfiliyinin qeyri-kafi idarə olunması kimi məsələlər ortaya çıxır.



Bunların aradan qaldırılması məqsədilə aşağıdakı tövsiyələr irəli sürülür:

- Məktəblərdə rəqəmsal cihazların təmin edilməsi üçün mərkəzi investisiya modellərinin tətbiqi (məs., 1:1 cihaz proqramları);
- Satınalma proseslərinin standartlaşdırılması və mərkəzi dəstəyin gücləndirilməsi (məs., Get Help Buying for Schools tipli xidmətlər);
  Məktəb şuralarının 2027-ci ilə qədər informasiya təhlükəsizliyi və məxfiliyi (İBP) standartlarına uyğunluğunun qanunla təmin edilməsi;
- Büdcə resurslarının rəqəmsal təhsilin inkişafına yönəldilməsi.

**Təhsil texnologiyaları (EdTech) və tədris materialları sektoru:**

Hesabatda 2021–2024-cü illər ərzində EdTech sektorunda davamlı inkişaf müşahidə edilmişdir. Süni İntellekt üzrə Milli Təhsil Laboratoriyası (NOLAI) kimi yeni təşəbbüslər (2022–2032-ci illər üçün 80 mln. avro + əlavə 63 mln. avro dövlət fondundan maliyyələşmə) süni intellekt əsaslı həllərin birgə yaradılmasını və prototipləşdirilməsini dəstəkləyir. Bundan əlavə, Edurep axtarış mühərriki və Impuls Open Leermateriaal (IOL) proqramı açıq təhsil resurslarının (OER) inkişafını dəstəkləyir. Qeyd olunan müsbət cəhətlərlə yanaşı, hesabat bir sıra çatışmazlıqları da vurğulayır. Bunlar arasında keyfiyyət meyarlarının və sistemli sınaq proseslərinin olmaması, yeni EdTech şirkətləri üçün etibar qazanma çətinliyi, qlobal əməkdaşlıqlar səbəbindən məxfilik, təhlükəsizlik və sistemlərarası uyğunluq standartlarının tətbiqində çətinliklər, məktəblərin resurs və xidmət mühitində fəaliyyət imkanlarında qeyri-bərabərlik və Təhsil üçün birgə innovasiya, satınalma və İKT üzrə kooperativ qurumun (SIVON) rəqəmsal proqram təminatındakı məhdud rolu xüsusilə diqqət çəkir. Qeyd olunan çatışmazlıqlar nəzərə alınaraq, aşağıdakı tövsiyələr irəli sürülür:

- EdTech və təhsil materiallarının sınaq üçün strukturlaşdırılmış mühitlərinin (testbed və sandbox modelləri) yaradılması;
- Keyfiyyət meyarları və müstəqil qiymətləndirmə proseslərinin inkişafı (məsələn, Flandriya və Avstriya modelləri);
- İnnovativ satınalma mexanizmlərinin inteqrasiyası (Norveç nümunəsi);
- Açıq Təhsil Resursları (OER) təlimlərinin tətbiqi (New York nümunəsi).

Bu tədbirlər rəqəmsal xidmət mühitinin şəffaflığını, keyfiyyətini və əlçatanlığını artırmaqla yanaşı, innovasiyanı pedaqoji səmərəlilik və etik prinsiplərlə uzlaşdırmağa xidmət edir.

**Pedaqoji kadr çatışmazlığı:**

Hesabatda qeyd olunur ki, Niderlandda müəllimlər yüksək səviyyədə idarəetmə müstəqilliyinə malikdirlər. TALIS 2024 məlumatlarına əsasən, onlar təlim metodları, kurikulm və qiymətləndirmə sahəsində geniş səlahiyyətlərə sahibdirlər. Lakin bu müstəqillik rəqəmsal resursların pedaqoji inteqrasiyasında Texnoloji-Pedaqoji Məzmun Biliyi (TPACK) modelinə uyğun olaraq məhduddur, yəni müəllimlərin təcrübəsində texnoloji, pedaqoji və məzmun biliklərinin sintezi kifayət qədər təmin olunmur.

OECD-nin qiymətləndirməsinə görə, Niderlandda müəllimlərin əksəriyyəti rəqəmsal texnologiyaların tədrisdə məqsədyönlü istifadəsini dəstəkləsə də məktəblər arasında rəqəmsal bacarıq və hazırlıq səviyyəsində qeyri-bərabərlik mövcuddur. Hesabatda vurğulanır ki, müəllimlər üçün davamlı peşəkar inkişaf (Continuing Professional Learning) hüquqi baxımdan məcburi deyil və hər müəllimə illik 16 saatlıq təlim əldə etmək imkanı verilsə də iş yükü, kadr çatışmazlığı və məktəb səviyyəsində dəstəyin qeyri-bərabərliyi bu imkanlardan istifadəyə ciddi maneələr yaradır. TALIS 2024 məlumatlarına əsasən, müəllimlərin 59%-i peşəkar inkişafda iştirakın əsas maneəsi kimi iş qrafiki ilə bağlı çətinlikləri, 46%-i isə motivasiyanın və ya stimulların olmamasını göstərir. Bu göstəricilər TALIS 2018 nəticələrindən (22%) iki dəfə yüksəkdir. Bundan əlavə, rəqəmsal təhsil üzrə müəllimlərin peşəkar bacarıqlarını istiqamətləndirən vahid milli kompetensiya çərçivəsinin olmaması inkişaf fəaliyyətlərinin sistemliliyini zəiflədir. Bununla yanaşı, Müəllimlərin Peşəkarlaşdırılması üzrə Milli Fəaliyyət Planı (NAPL) çərçivəsində Milli İnkişaf Fondu tərəfindən ayrılmış uzunmüddətli maliyyə vəsaitləri müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi üçün əhəmiyyətli imkanlar yaradır.

Hesabatda qeyd olunur ki, süni intellekt və digər qabaqcıl texnologiyalar müəllimlərin yükünü azaltmaq, təlimin fərdiləşdirilməsini gücləndirmək və tədris məlumatlarının təhlilindən istifadəni genişləndirmək potensialına malikdir. Buna baxmayaraq bu texnologiyaların səmərəli tətbiqi müəllimlərdən yüksək səviyyəli pedaqoji, analitik və etik bacarıqlar tələb edir. Hesabatda xüsusi olaraq vurğulanır ki, rəqəmsallaşma şəraitində müəllimin əsas pedaqoji rolu - şagirdlərlə münasibətlərin qurulması, onların rifahının izlənməsi və pedaqoji qərarların məsuliyyətlə qəbul edilməsidir. Hesabat müəllim peşəsinin gələcəyinin formalaşdırılmasında müəllimlərin təşkilati təsir imkanlarının gücləndirilməsinin vacibliyini vurğulayır və peşəkar müəllim təşkilatlarının yenidən qurulmasını bu baxımdan strateji əhəmiyyətli addım kimi qiymətləndirir. Bu istiqamətdə mövcud məhdudiyyətlərin aradan qaldırılması üçün aşağıdakı tövsiyələr təqdim olunur:

- Müəllimlərin davamlı peşəkar inkişafı üçün keyfiyyət standartları hazırlanmalı, qəbul edilməli və sistem üzrə geniş tətbiq olunmalıdır.
- Müəllimlərin rəqəmsal savadlılığının artırılması məqsədilə peşəkar standartlar hazırlanmalı və ya mövcud peşəkar çərçivələrdən daha sistemli şəkildə istifadə edilməlidir.
- Müəllimlər arasında əməkdaşlıq və bilik mübadiləsi təşviq olunmalıdır.
- Rəqəmsal savadlılıq və digər fənlər üzrə tədris materiallarının birgə hazırlanmasına təşəbbüs
- göstərilməlidir.
- Məktəb rəhbərlərinin rolunun gücləndirilməsi təmin olunmalıdır.

**Kurikulum çərçivəsi və məktəb qiymətləndirmələri:**

Ölkədə kurikulum çərçivəsi Niderland Kurikulum İnkişafı İnstitutu (Stichting Leerplan Ontwikkeling) tərəfindən hazırlanır və üç əsas hüquqi komponentdən ibarətdir:
1.Əsas məqsədlər; 2.İstinad səviyyələri; 3.Orta məktəb üçün imtahan proqramları.

Əlavə olaraq, Niderland Kurikulum İnkişafı İnstitutu könüllü rəhbərlik xidmətləri (məsələn, Leerplan in Beeld) də təqdim edir ki, bu da məktəblərə kurikulumun praktik inkişafı və tətbiqi üçün dəstək verir. Hesabatda bildirilir ki, rəqəmsal savadlılıq, ana dili və riyaziyyatla yanaşı, rəsmi olaraq "əsas bacarıq" statusu alıb və 4 əsas alt sahəni əhatə edir:
1.Rəqəmsal savadlılıq; 2.İnformasiya savadlılığı; 3.Media savadlılığı; 4.Hesablama təfəkkürü.
Bu istiqamətdə yeni hədəflər müəyyən edilib və onların 2027-ci ilə qədər tam hüquqi qüvvəyə minməsi gözlənilir.

Hesabatda qeyd olunur ki, qiymətləndirmə iki əsas səviyyədə aparılır: məktəb daxilində (məsələn, CITO monitorinq testləri) və mərkəzi imtahanlar (centrale examens) vasitəsilə. Buna baxmayaraq, rəqəmsal savadlılıq və hesablama təfəkkürü kimi bacarıqlar hələ sistematik şəkildə milli səviyyədə qiymətləndirilmir. Bütün müsbət tərəflərə baxmayaraq, hesabat bir sıra çətinlikləri də vurğulayır. Bunlar arasında əməkdaşlıq və koordinasiya zəifliyi, məktəb şuraları arasında dəstək səviyyələrinin qeyri-bərabərliyi, yeni sahələrin tədrisə əlavə olunması nəticəsində kurikulumun ümumi yükünün artması, rəqəmsal bacarıqların sistematik qiymətləndirilməməsi və müəllimlərin tətbiqdə qarşılaşdıqları çətinliklər yer alır. 2024-cü il sorğularına görə, müəllimlərin təxminən 70%-i rəqəmsal inteqrasiyada çətinlik yaşadıqlarını bildirib.

2027-ci ilədək aydın yol xəritəsi hazırlanaraq mərkəzi koordinasiya təmin edilməli, məktəblərə qiymətləndirmə mərkəzləri, maliyyə dəstəyi və regional şəbəkələr vasitəsilə praktik dəstək göstərilməli, interaktiv və fərdiləşdirilə bilən kurikulum çərçivəsi tətbiq olunmalı, rəqəmsal savadlılıq məktəb daxilində və müfəttişlik qiymətləndirmələrinə sistemli şəkildə inteqrasiya edilməli və fənlərarası əlaqə ilə kurikulum optimallaşdırılmalıdır.

***Mənbə:** OECD (2025), OECD Review of Digital Education Policy in the Netherlands, OECD Reviews of School Resources, OECD Publishing, Paris, https://doi.org/10.1787/91118813-en.*



Beynəlxalq Təhsil İcmalı
Yanvar 2026